**Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat ? idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında ?sasnamə ?də dəyişiklik edilməsi barədə**

AZ ?RBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN F ?RMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 4, maddə 258, 12, maddə 1058; 2009, 2, maddə 75, 7, maddə 532, 8, maddə 618, 10, maddə 776; 2010, 2, maddə 88, 7, maddə 610, 8, maddə 717, 9, maddə 770; 2011, 4, maddə 282, 10, maddə 891; 2012, 8, maddə 787; 2013, 9, maddə 1046, 11, maddələr 1321, 1339; 2014, 2, maddə 122, 9, maddələr 1027, 1062; 2015, 2, maddə 121, 5, maddələr 522, 543, 9, maddə 989) ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat ? idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında ?sasnamə ?nin 11.9-cu bəndi aşağıdakı redaksiyada verilsin:

“11.9. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi — operatoru olduğu, həmçinin tabeliyində olan qurumların operatoru olduğu informasiya sistemlərinin fəaliyyətinin təmin olunması, habelə "ASAN xidmət" mərkəzlərində xidmətlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyət vəsiqələri, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi yaşamaq hüququnu təsdiq edən sənədlər üzrə məlumatlar; ?.

**İlham ?LİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 fevral 2016-cı il
764